

"ABŞ və Azərbaycan ikitərəfli əlaqələrin möhkəmləndirilməsində maraqlıdırlar".

AzNews.az-ın Trend-ə istinadən məlumatına görə, bunu jurnalistlərə ABŞ-ın Azərbaycandakı səfiri Robert Sekuta deyib.

Səfirin sözlərinə görə, ABŞ Dövlət Departamentinin Azərbaycandakı seçkilərlə bağlı bəyanatında qeyd olunub ki, ABŞ Azərbaycanla əməkdaşlığı davam etdirmək niyyətindədir.

O, qeyd edib: "Biz, həmçinin ATƏT-in dünyada təhlükəsizlik və stabilliyin təmin edilməsi üçün yaradılmış önəmli bir təşkilat olduğunu vurğulamaq istərdik. Dağlıq Qarabağ münaqişəsi ATƏT çərçivəsində həll edilir ki, bu da münaqişənin ilkin vəziyyətə qayıtmasına imkan vermir. Təşkilatın işinin önəmi də məhz bundadır".